# LƏNKƏRANIN DAHA İKİ YAŞAYIŞ MƏNTƏQƏSİNƏ TƏBİİ QAZ VERİLMİŞDİR





Nərimanabad qəsəbəsinin mərkəzində qələbəlik hökm sürürdü. Sakinlərin üzündə sevinc, xoş təbəssüm hiss olunurdu. Uzun fasilədən - təxminən 21 ildən sonra qəsəbəyə təbii qaz verilişi yenidən bərpa olunmuşdur.

Qəsəbədə yaşayan 754 ailənin mavi yanacaqla təhciz edilməsi üçün birpilləli sistem əsasında müxtəlif diametrli, uzunluğu 28214 metr metal borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilmiş, 754 sayğac və fərdi tənzimləyici quraşdırılmışdır.

"Üzümçülük" yaşayış məntəqəsinin də qazlaşdırılması başa çatdırılmışdır. Bu məqsədlə ərazidə 8528 metr uzunluqda müxtəlif diametrli metal borularla, 901 metr uzunluqda polietilen borularla daşıyıcı və məhəllədaxili xətlər çəkilmiş, 167 abonentin qaz verilişi bərpa olunmuşdur.

Yaşayış məntəqələrinə təbii qaz verilişinə həsr olunmuş mərasimə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, "Azəriqaz" İstehsalat Birliyinin rəhbər işçiləri, qəsəbə sakinləri, ictimaiyyətin nümayəndələri toplaşmışdılar.

Tədbiri Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının Nərimanabad inzibati ərazi dairəsi üzrə nümayəndəsi Ağamirzə Ağayev açaraq uzun illər əhalini narahat edən problemin həll olunduğunu, bunun sakinlər tərəfindən hədsiz dərəcədə razılıqla qarşılandığını bildirmişdir.

Respublikanın əməkdar müəllimi İman Mikayılov, gənclərdən Uğur Qurbanzadə və başqaları çıxış edərək qəsəbənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə etmişlər.

Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırığı ilə respublikamızda, o cümlədən Lənkəran rayonunda yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində layihələrin həyata keçirildiyini, artıq Lənkəranın 58-ci yaşayış məntəqəsinə təbii qazın verildiyini bildirmiş, "mavi alov"un hər bir evə hərarət və bərəkət gətirməsini arzulamışdır.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov möhtərəm Prezidentimizin insan amilinə, əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xüsusi diqqət yetirdiyini, məhz cənab Prezidentin yüksək qayğısı sayəsində aprel ayında Liman-Nərimanabad-Balıqçılar avtomobil yolunun əsaslı şəkildə təmir edilərək istifadəyə verildiyini, qısa vaxtda qəsəbənin və "Üzümçülük" yaşayış məntəqəsinin qazlaşdırıldığını bildirmişdir.

İcra başçısı rayonun şəhər, qəsəbə və kəndlərinin 83,4 faizinin təbii qazla təmin edildiyini, qazlaşmanın davam etdirildiyini diqqətə çatdırmış, sakinlərə ən xoş və səmimi arzularını söyləmişdir.

Sonda təbii qazın verilməsini bildirən məşəl alovlandırılmışdır.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**